# Leyla Əliyevanın təşəbbüsü paytaxtın abadlaşdırılması prosesinə böyük təkan verir

IDEA İctimai Birliyinin və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri rayonlarının İcra hakimiyyətlərinin dəstəyi ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir. "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan daha bir həyət sakinlərin istifadəsinə verilib.



Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən verilən məlumata görə, yenilənən həyət Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi 11, Fəzail Bayramov küçəsi 5, Firuz Qənbərov küçəsi 6 və Sergey Senyuşkin küçəsi 10 ünvanlarında 600 nəfər sakinin yaşadığı 4 ədəd beş mərtəbəli binaları əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Bakı Şəhər İcra Hakimiyyətinin strukturlarının dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan ümumi sahəsi 6500 kvadratmetr olan həyətdəki binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Binaların girişləri əsaslı təmir edilmiş, giriş qapıları müasir standartlara uyğun yeni kod tipli qapılarla əvəzlənmiş, girişlərdəki köhnə pəncərələr yeniləri ilə dəyişdirilmiş, binaların kürsü hissəsi aqlay üzlük daşı ilə üzlənərək fasadları əsaslı təmir olunmuşdur. Binaların girişlərindəki qeyri-qanuni tikililər sökülərək əvvəlki vəziyyətinə gətirilmişdir. Həyətdə yerləşən xeyir-şər evi əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Həyətdə 680 metr uzunluğunda yeni səki daşları düzülmüş, köhnə asfalt örtüyü qaşınaraq 3500 kvadratmetrə yaxın yeni asfalt örtüyü salınmışdır. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilmiş, 600 kvadratmetrə yaxın ərazidə yaşıllıq zolağı salınmışdır. Sakinlərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə yeni söhbətgah, idman qurğuları, uşaqlar üçün uşaq əyləncə mərkəzi quraşdırılmış və döşəməsi rezin örtüklə örtülmüşdür.

Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Həyətə yeni müasir tipli oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi və təhlükəsizlik kameraları quraşdırılmışdır.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilmişdir. Sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan yeddinci həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



